# Mədəniyyət xəbərləri



**Azərbaycan Aşıqlar Birliyində (AAB) növbəti layihə yekunlaşmaq üzrədir. "Aşıqlar Vətən müharibəsində Qələbəni tərənnüm edir" adlanan layihə QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirilir.**

Mövzu çərçivəsində aşıqların Azərbaycan Ordusunun 44 günlük müharibədə əldə etdiyi Qələbəni tərənnüm edən ifalarından ibarət audiodisk hazırlanır. Əməkdar mədəniyyət işçiləri Ağamurad Şirvanlı və Samirə Əliyeva, aşıqlar Qələndər Zeynalov, Nazim Quliyev, Nəbi Nağıyev, Altay Məmmədli, Kəmalə Qubadlı, Roman Azafı və digərlərinin, eləcə də "Çeşmə" və "Misri" qruplarının ifasında zəfər ruhlu mahnılar səsyazma studiyasında lentə alınıb. Ümumilikdə, audiodiskə 20 ifa daxildir. Layihənin rəhbəri AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, əlaqələndirici Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.

***

**Sumqayıtda S.Vurğun adına Mərkəzi Kitabxananın və Qızıl Aypara Cəmiyyəti (QAC) şəhər bölməsinin birgə təşkilatçılığı ilə "Həssas saat" layihəsi çərçivəsində "Sevgimizi paylaşaq..." adlı tədbir keçirilib.**



Moderator, yazıçı-dramaturq Hafiz Ataxanlı cəmiyyətdə qayğıkeşliyin, insanpərvərliyin hər zaman gərəkli olduğunu bildirib. QAC Sumqayıt bölməsinin sədri Mətanət Məhərrəmova, Sumqayıt şəhər MKS-nin direktoru Natəvan Axundzadə, SOCAR Sumqayıt idarəsinin sosial məsələlər üzrə əməkdaşı Bəxtiyar Musayev və böyük kitabxanaçısı Zübeydə Məmmədova ölkədə sosial-humanitar siyasətin əhəmiyyətindən danışıblar. Cəmiyyətdə sevginin paylaşılması, humanizm ənənələrinin davam etdirilməsi baxımından tədbirin əhəmiyyəti vurğulanıb. Sonda kimsəsiz, ehtiyacı olan ahıllara ərzaq sovqatı paylanılıb.

***

**Yazıçılar Birliyinin Şimal-Qərb regional bölməsi açılıb. Bununla bağlı Zaqatala rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilib.**



Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin Yaradıcılıq məsələləri üzrə katibi, Əməkdar mədəniyyət işçisi, kino-dramaturq İlqar Fəhmi, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Mədəniyyət Mazirliyi regional idarələrinin rəhbərləri, yerli yazarlar və ziyalılar iştirak ediblər. Natiqlər yeni bölmənin açılmasının bölgədə ədəbi mühitin daha da inkişaf etməsinə xidmət edəcəyini bildirərək quruma uğurlar arzulayıblar.

Bölməyə sədr seçilən yazıçı-jurnalist Əlmaniz Ələkbərli maraqlı ədəbi-bədii tədbirlərin keçirilməsi, qələm sahiblərinin bədii yaradıcılığının inkişafına daha münbit şərait yaradılması, yeni istedadların üzə çıxarılması üçün fəal çalışacağını bildirib.

***Hazırladı:***
***Ə.DOSTƏLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2023.- 31 avqust.- S.11.